

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

16 oktyabr 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 40 (3752)


# İnkişaf, sabitlik, qürur salnaməsi

**Oktyabrın 15-də dövlətimizin başçısı İlham Əliyevin 2003-cü ildə ilk dəfə Azərbaycan Prezidenti seçilməsinin 22-ci ili tamam oldu.**



Həmin ilin oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciətində demişdi:

"Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyinizlə

> *“Azərbaycan xalqı əmin-amanlığın, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi”*

dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Xalq Ulu Öndərin çağırışına dəstək göstərdi. Nəticədə 2003-cü il oktyabrın 15-də keçirilən Prezident seçkilərində seçicilərin 76 faizindən çoxu İlham Əliyevin lehinə səs verərək onu Azərbaycan Prezidenti seçdi və bununla da ölkənin inkişafında yeni mərhələ başlandı. O gün Azərbaycan xalqı əmin-amanlığa, inkişafa, quruculuğa və sabitliyə səs verdi.

## Azərbaycan 22 ildə qüdrətli dövlətə çevrilib

Prezident İlham Əliyev iyirmi iki illik fəaliyyəti dövründə xalqa verdiyi vədləri bütünlüklə yerinə yetirib. Bu müddət ərzində Azərbaycanın bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifahı daha da yaxşılaşıb.

Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, müasir ordu yaradılıb, ölkənin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Ən əsası isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü tam təmin edilib və Ulu Öndərin torpaqlarımızın azad olunması ilə bağlı müqəddəs arzusu həyata keçirilib.

Yaşadığımız müasir tariximizin şərəfli səhifələrindən olan 44 günlük Vətən müharibəsi günümüzün, zamanımızın bir çox reallıqlarını kökündən dəyişdi. İkinci Qarabağ müharibəsində cəsur zabit və əsgərlərimizin qəhrəmanlığı sayəsində qazanılmış Zəfər, 2023-cü il sentyabrın 19-20-də keçirilən antiterror tədbirləri Qarabağda və Şərqi Zəngəzurda kök salmış erməni terrorizminə, separatizminə və vandalizminə son qoydu.

Qarabağ erməni separatçılarından, erməni faşizmindən azad olunduqdan sonra Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 2023-cü il oktyabrın 15-də - ölkəmizə ilk dəfə prezident seçildiyi gündə təntənəli şəkildə Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərində Azərbaycanın dövlət bayrağını ucaltdı. Xüsusən bir zamanlar Qarabağ separatçılarının ölkəmizə qarşı məkrli planlar hazırladığı Xankəndi şəhərində dövlət bayrağımızın ucaldılması ölkəmiz, xalqımız üçün tarixi gün kimi yaddaşlara yazıldı.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir, Qarabağda bərpa-quruculuq fəaliyyəti tam gücü ilə davam edir və sosial proqramlar həyata keçirilir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan tezliklə Qarabağı cənnətə çevirəcək və öz ata-baba yurdlarından didərgin düşən keçmiş məcburi köçkünlər təhlükəsiz şəkildə evlərinə əbədi olaraq qayıdacaqlar.

# Sammitdə Azərbaycan nümunəsi

## Prezident İlham Əliyevin qlobal liderliyi bir daha təsdiqləndi

Misirdə yalnız Yaxın Şərqin deyil, dünyanın gələcək taleyini həll edə biləcək sammit keçirilib. Şarm-əl-Şeyxdə Qəzza bölgəsinin gələcəyi ilə əlaqədar təşkil olunan sammitdə qlobal siyasətdə söz sahibi olan dövlətlərin başçıları iştirak ediblər.

Həyata keçirdiyi müstəqil siyasətlə qlobal nüfuzu artan, adı dünyanın tanınmış siyasətçiləri arasında çəkilən, etibarlı tərəfdaş statusuna sahiblənən Prezident İlham Əliyev də sammitə dəvət olunanlar sırasında yer alıb. İlham Əliyev ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak edib.

Qeyd edək ki, bu yüksəksəviyyəli siyasi tədbirə Fransa Prezidenti Emmanuel Makron, Böyük Britaniyanın Baş naziri Kir Starmer, İtaliya Nazirlər Şurasının Sədri Corcia Meloni, İspaniyanın Baş naziri Pedro Sançes, həmçinin Yaponiya, Hindistan, Kanada, Yunanıstan, Bəhreyn, Əl-Küveytin, Qətər və İordaniyanın xarici işlər nazirləri, eləcə də BMT və Avropa İttifaqının təmsilçiləri qatılıblar.

Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp tərəfindən sammitə şəxsən dəvət olunması isə artıq Azərbaycanın qlobal siyasətdə özünəməxsus yer tutduğunu göstərir. Azərbaycan Prezidentinin Yaxın Şərq Sülh Sammitinə dəvət alması heç də təsadüfi xarakter daşımır. Ölkəmiz Suriyaya yardım məqsədilə təbii qaz ixrac etməsi faktı Prezident İlham Əliyevin humanist baxışlarını göstərməklə yanaşı, sülhə doğru addım atan siyasi liderlik qabiliyyətində olduğunu da nümayiş etdirir. Bütün bunlar Azərbaycan Prezidentinin dünya liderləri sırasında sülhsevər dövlət başçısı kimi nüfuzunu möhkəmləndirir.

Bu gün İlham Əliyev şəxsiyyətinə, liderliyinə, geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, dövlətimizin başçısı təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, o, ümumiyyətlə, dünya miqyasında tanınan qlobal liderliyi etiraf olunan şəxsiyyətdir. Elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud prblemlərinin həlli yolları barədə fikirlər səsləndirməsin, təkliflərini irəli sürməsin. Yeni İlham Əliyev mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir.

Yaxın Şərq Sülh Sammitində iştirak edən Prezident Əliyev Azərbaycanı yalnız enerji ixracatçısı kimi deyil, həm də beynəlxalq sülh və təhlükəsizlik məsələlərində fəal iştirak edən bir aktor olaraq təqdim edib. Bu onun Azərbaycanın beynəlxalq məsələlərlə yanaşı qlobal məsələlərdə də mühüm söz sahibi olduğunu göstərir.

Prezident İlham Əliyevin Yaxın Şərq Sülh Sammitindəki iştirakı Azərbaycanın qlobal siyasətdəki artan rolunu bir daha nümayiş etdirdi. Onun diplomatik ustalığı, regiondakı və dünya miqyasında sülhün bərpa edilməsinə yönəlmiş səyləri, həmçinin Azərbaycanın multikultural dəyərlərə və beynəlxalq əməkdaşlığa verdiyi əhəmiyyət onu qlobal siyasət arenasında etibarlı və güclü bir lider olaraq tanıdır. Bu, həm Azərbaycan üçün, həm də bütün dünyada sabitlik və qarşılıqlı anlaşmanın təşviqi baxımından mühüm əhəmiyyət daşıyır.

# Liderlər sülh üçün görüşüblər

## Görüş Misirdə sammit çərçivəsində baş tutub

Azərbaycan Prezidenti İlham Əliyev Misirdə bir sıra ölkələrin liderləri ilə görüşüb. Görüşlər bu ölkədə keçirilən Yaxın Şərq Sülh Sammiti çərçivəsində baş tutub.

Azərbaycanın dövlət başçısı adıçəkilən sammitdə Pakistanın Baş naziri Şahbaz Şərif, İordaniya Kralı II Abdullah, Fələstin Prezidenti Mahmud Abbas, Macarıstanın Baş naziri Viktor Orban, Niderland Krallığının Baş naziri Dik Sxofla, Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşüb.

# Prezident həmkarına təşəkkür edib

## “Siz istintaqın gedişinə şəxsən nəzarət edirsiniz”

Azərbaycan Prezidenti İlham Əliyev AZAL-ın təyyarəsinin qəzaya uğraması ilə bağlı vəziyyəti şəxsən nəzarətdə saxladığına görə rusiyalı həmkarı Vladimir Putinə təşəkkür edib.

"Siz istintaqın gedişinə şəxsən nəzarət edirsiniz və bizim şübhəmiz yox idi ki, o, hər şeyi obyektiv araşdıracaq. Ona görə də bizim görüşümüzdə Sizin məhz bu məsələyə aydınlıq gətirməyi lazımlı hesab etdiyinizə görə bir daha minnətdarlığımı bildirmək istərdim", - deyə dövlətimizin başçısı bildirib.

# Dövlət Başçılarının Şurası toplanıb

## Dövlətimizin başçısı iclasda çıxış edib

Oktyabrın 10-da Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirilib. İclasda çıxış edən Prezident İlham Əliyev Laçın şəhərinin bu il MDB-nin mədəniyyət paytaxtı kimi namizədliyini dəstəklədiklərinə görə MDB dövlət başçılarına təşəkkür edib.

Dövlətimizin başçısı sentyabrın 28-dən oktyabrın 8-dək Gəncə şəhərində keçirilən III MDB Oyunlarının da Birliyin həyatında mühüm hadisə olduğunu vurğulayıb.

Həmin gün Prezident İlham Əliyev Dövlət Başçıları Şurasının geniş tərkibdə keçirilən iclasına da qatılıb.

# Fərman və sərəncamlar

*Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə Sevil Heydər qızı Əliyeva “Şərəf” ordeni ilə təltif edilib. Bununla bağlı Prezident İlham Əliyev oktyabrın 11-də Sərəncam imzalayıb.*

*Azərbaycan Prezidentinin “Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında” 27 mart 2020-ci il tarixli, “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 17 noyabr 2023-cü il tarixli və “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 29 iyul 2024-cü il tarixli fərmanlarında dəyişiklik edilib. Prezident İlham Əliyev bununla bağlı oktyabrın 14-də yeni Fərman imzalayıb.*


Beynəlxalq sərgi keçirilir........................2

Silah olmasın, sabitlik olsun..................2

Problemə biganə qalmırıq.....................3

Futbolda da fərqləndilər........................4

# Respublika Xəbərləri

### Kiberfestival keçirilib

Azərbaycanda ikinci dəfə “Critical Infrastructure Defence Challenge 2025” (CIDC-2025) kiberfestivalı keçirilib. İki gün davam edən tədbir Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə təşkilatçılığı ilə həyata keçirilib. Kiberfestivalda daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov da iştirak edib.

### Məskunlaşma davam edir

İşğaldan azad olunmuş ərazilərə keçmiş məcburi köçkünlərin mərhələli və könüllü şəkildə qayıdışı davam edir. Hazırda Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında 22 minə yaxın şəxs məskunlaşıb. Onların sırasında keçmiş məcburi köçkünlərlə yanaşı, dövlət və özəl qurumlarda çalışanlar, həmçinin onların ailə üzvləri də var.

### Taksilərin sayı məhdudlaşdırıldı

Nazirlər Kabineti taksi minik avtomobilləri ilə sərnişin daşımaları üçün icazələrin əlavələrinin sayına məhdudiyyətlər tətbiq edilməsi haqqında qərar qəbul edib. Qərara əsasən, Bakı şəhərinin inzibati ərazi vahidi üzrə taksi minik avtomobilləri ilə sərnişin daşımaları üçün verilən icazələrin əlavələrinin say həddi 25 000 müəyyən edilib.

### Onlar qayıdır

Xocalı rayonuna yola salınan növbəti köç karvanı Şuşakənd kəndinə çatıb, açarlar təqdim olunub. Bununla Şuşakəndə köçürülən ailələrin sayı 42-yə çatıb. Rayonun Təzəbinə kəndinə də növbəti köç karvanı gedib. Bununla da kəndə köçürülən ailələrin sayı 83 olub.

### Dörd şəhərin baş planı hazırdır

Xankəndi, Ağdərə, Xocavənd və Xocalı şəhərlərinin baş planları hazırlanıb və razılaşdırılma mərhələsindədir. Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən bildirilib ki, yaxın vaxtlarda təsdiqləndikdən sonra həmin ərazilərdə tikinti və quruculuq işləri məhz bu planlar əsasında ardıcıl şəkildə həyata keçiriləcək.

### ÜDM artıb

Cari ilin yanvar-sentyabr aylarında ölkədə 95 milyard 229,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Əhalinin hər nəfərinə düşən ÜDM 9300,3 manata bərabər olub.

### Əhalinin sayı açıqlanıb

Azərbaycanda əhalinin sayı ilin əvvəlindən 24 min 611 nəfər artıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, əhalinin sayı cari ilin sentyabr ayının 1-i vəziyyətinə 10 milyon 249 min 500 nəfərə çatıb. Ölkə əhalisinin 54,4 faizini şəhər, 45,6 faizini kənd sakinləri təşkil edir.

### Yeni istehsal müəssisələri yaradılacaq

Şərqi Zəngəzurda yerləşən "Araz Vadisi iqtisadi zonası" və Qarabağda yerləşən Ağdam sənaye parklarında yeni layihələr həyata keçirilir. Məlumata görə, Şərqi Zəngəzurda 8 milyon manat investisiya ilə soyutma avadanlıqlarının istehsalı müəssisəsi qurulacaq, ildə 5 növdə 3 680-dən çox avadanlıq istehsal ediləcək. Ağdamda isə 6 milyon manat dəyərində mebel fabriki fəaliyyətə başlayacaq.

### Nikahların sayı artıb, boşanmalar azalıb

Bu ilin yanvar-avqust aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ölkə ərazisində 31 min 403 nikaha daxilolma və 13 min 869 boşanma halı qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə nikahların sayı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,5-dən 4,6-ya qədər artıb. Boşanmaların sayı isə 2,1-dən 2-yə enib.

### Dünya ilə ticarət

Azərbaycanın hüquqi və fiziki şəxsləri bu ilin yanvar-avqust aylarında dünyanın 173 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçiriblər. Ümumilikdə 112 ölkəyə məhsul ixrac olunub, 167 ölkədən isə məhsul idxal olunub.

# Beynəlxalq sərgi keçirilir

## Sərgidə DİN-in xüsusi pavilyonu nümayiş etdirilib

**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Beynəlxalq sərgi təşkilatçısı "Caspian Event Organisers" şirkətinin “13-cü Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat “Road and Traffic” sərgisində iştirak edir.**





Bakı Expo Mərkəzində keçirilən sərgidə DİN-in xüsusi pavilyonunda Bakıda ilk dəfə sınaq tətbiqinə başlanılan və nəqliyyat axınının fasiləsiz hərəkətinə şərait yaradan “Ağıllı svetoforlar” (adaptiv svetoforlar) pilot layihəsi nümayiş etdirilir. Stenddə paytaxtın 152 kəsişməsində Mərkəz tərəfindən idarə olunan svetofor kontrollerinin proqram təminatı, svetoforların vaxt planlarının hazırlanması və tətbiqi, simulyasiya proqram təminatı, eləcə də qanunsuz parklanma kameralarına dair elektron qərarların tərtibi kimi dörd əsas istiqamət barədə məlumat əldə etmək mümkündür. Eyni zamanda, ziyarətçilərə üç ölçülü elektron xəritənin və naviqasiya əsaslı mobil tətbiqin hazırlanması ilə bağlı məlumatlar verilir. Həmçinin, ziyarətçilərə Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən təqdim olunan “i-Patrol” sistemi – real vaxt rejimində qayda pozuntularının aşkarlanması və məlumatların mərkəzi sistemə ötürülməsi, avtomatik nömrə tanıma və videomüşahidə sistemləri, eləcə də patrul avtomobillərində quraşdırılmış müasir texnoloji avadanlıqlar nümayiş edilir. Yol infrastrukturunun inkişafı, yol hərəkəti təhlükəsizliyinin artırılması, rəqəmsal idarəetmə texnologiyalarının tətbiqi və müasir müşahidə-nəzarət sistemləri sahəsində təcrübə mübadiləsini təmin edən sərginin keçirildiyi üç gün ərzində “Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin Radiosu” MMC-nin 107.7 MHz tezliyində yayımlanan "Avto FM" radiosu stendə qurulan radio imitasiyası vasitəsilə birbaşa canlı bağlantı yaradaraq məlumatları dinləyicilərin diqqətinə çatdırır. Ziyarətçilər yol hərəkəti təhlükəsizliyinin təmin olunması və bu istiqamətdə həyata keçirilən tədbirlər barədə polis əməkdaşları tərəfindən ətraflı məlumatlandırılırlar. Təqdimatlar azərbaycan, rus və ingilis dillərində aparılır, interaktiv nümayişlər və videomateriallar vasitəsilə ziyarətçilər sistemlərin iş prinsipi ilə yaxından tanış olurlar.

# Silah olmasın, sabitlik olsun

## Böyük Qayıdışın əsas hədəflərindən biri də budur

**Azad edilmiş torpaqlarda həyatın bərpası yalnız yolların, binaların və infrastrukturun yenilənməsi deyil. Bu prosesin əsasında insanların təhlükəsizliyi, qanuna hörmət və ictimai sabitliyin qorunması da dayanır.**









Məlum olduğu kimi, işğaldan qurtulmuş ərazilərdə bu gün genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirilməsi üçün ölkəmizin hər yerindən böyük işçi qüvvəsi cəlb olunub.

Yeri gəlmişkən, bu həm də işsizliyin aradan qaldırılmasında mühüm rol oynayır. Onların təhlükəsizliyinə gəlincə, bu məsələdə əsas məsuliyyət yenə də polisin üzərinə düşür.

Həm ora da yenidən məskunlaşmaq üçün köçən sakinlərlə, həm də çalışan işçi qüvvəsi ilə keçirilən görüşlərdə insan həyatına təhlükə yaradacaq məsələlər barədə geniş maarifləndirici söhbətlər aparılır. Diqqətə çatdırılır ki, burada yaşayan, məskunlaşan hər bir vətəndaşın borcudur ki, düşməndən qalan silah-sursatı tapdığı və ya gördüyü zaman polisə məlumat versin, Qarabağda, bütövlükdə isə ölkədə bu sabitliyin qorunmasına öz töhfəsini əsirgəməsin.

Bu yaxınlarda Xankəndi Şəhər Polis Şöbəsinin əməkdaşlarının nəzarət-buraxlış məntəqəsində odlu silah-sursat keçirməyə cəhd edənlərin saxlanılması faktı bu məsələnin aktuallığını bir daha gündəmə gətirdi.

Xatırladaq ki, Bərdə rayon sakini Azər Qəhrəmanov azad edilmiş ərazidən odlu silah-sursat çıxarmağa cəhd göstərmiş, sursatı geyimlərin arasında gizlətmişdi. Araşdırmalar nəticəsində məlum olmuşdu ki, Qəhrəmanov silahları Xankəndidə restoranların birində işləyən qayınatasıdan və qayınından əldə edib. Polis əməkdaşlarının həyata keçirdiyi tədbirlər nəticəsində əlavə odlu silah və patronlar da aşkarlanaraq götürülmüşdü.

### Bu fakt sosial məsuliyyət müstəvisində də dəyərləndirilməlidir

Əvvəlcədən onu qeyd edək ki, qohumluq əlaqələrindən belə bir qanunsuz əməldə istifadə edilməsi hadisəyə mənəvi baxımdan ağır mahiyyət qatır. Çünki burada təkcə qanun pozulmur, cəmiyyətin ailə dəyərlərinə xas olan etimad prinsipi də sarsılır. Qayınata, qayın və kürəkənin cinayət əməli ətrafında birləşməsi cəmiyyətdə mənəvi aşınmanın nə qədər təhlükəli ola biləcəyini göstərir.Bu səbəbdən hadisə təkcə fərdi cinayət kimi deyil, sosial məsuliyyət müstəvisində də dəyərləndirmə tələb edir, ancaq buna sonrakı mövzularda qayıdarıq.

“Silah aparmaq” hadisəsi azad edilmiş torpaqlara köçən, orada işləyən hər kəs üçün ciddi dərsdir və ya dərs olmalıdır. Səbəbi çox sadədir. Bu torpaqlardan silah-sursat daşımaq, onu gizlətmək və ya satmaq cəhdləri təkcə cinayət deyil və bir-iki nəfərin tutulub məsuliyyətə cəlb edilməsi ilə bitmir.

Məlumdur ki, qanunsuz silah saxlama, gəzdirmə ümumən təhlükə mənbəyidir, bir gün mütləq kiminsə əlində açılır, cinayət əməli törədilir. Ona görə silah daşımaq ölkənin bütün ərazisində sabitliyə kölgə salan, ictimai təhlükəsizliyə və insanların rahat yaşayışına mane olan təhdid kimi qarşılanır.

### Polis ayıq-sayıq xidmət aparır

Bu baxımdan polisin qanunsuz odlu silah-sursatın əldə edilməsi istiqamətində apardığı işlər azad edilmiş ərazilərdə təhlükəsizliyin möhkəmlənməsi və qanun-qaydaların bərpası baxımından böyük əhəmiyyət daşıyır.

Hazırda Qayıdış prosesi davam etdirilir və bunun uğuru təhlükəsiz mühitin yaradılmasından keçir. Polis yurd-yuvalarına geri dönən insanların həyatının yalnız qorxu və riskdən uzaq olanda sabitliyə qovuşa biləcəyini çox dəqiq müəyyən edib.

### Hər bir vətəndaş Böyük Qayıdışa öz töhfəsini verməlidir

Aydın məsələdir ki, işğaldan azad edilmiş torpaqlarda uzun illər müharibənin izləri qalıb. Bu ərazilərdə gizlədilmiş silahlar, partlamamış sursatlar hələ də mövcuddur. Deməli, orada hər bir vətəndaş məsuliyyətli davranmalıdır. Bu o qədər önəmlidir ki, hər bir insanın, hər bir ailənin və bütövlükdə ölkənin təhlükəsizliyinə xidmət edir.

Xankəndi və digər azad edilmiş şəhərlərdə həyata keçirilən polis əməliyyatları dövlətin sabitlik strategiyasının tərkib hissəsi kimi çox dəyərlidir, ona görə ki, aşkarlanan hər bir silah, götürülən hər bir sursat bu əraziləri ölkənin ümumi təhlükəsizlik çətirinin altına alır. Azad edilən torpaqlamıza ayaq basan hər kəs də anlamalıdır ki, Böyük Qayıdış yalnız torpaqlara geri dönüş deyil, dəyərlərimizin və qanunlarımızın da o bölgəyə qayıtmasıdır.

*Rəşad Mehtiyev*

# Təbliğat uğurun yarısıdır

## Genişmiqyaslı təşviqat kampaniyası bütün ölkəni əhatə edir

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası tərəfindən həyata keçirilən təbliğat-təşviqat kampaniyası ölkə üzrə geniş vüsət alıb.**

Bu tədbirlərin əsas məqsədi gənclər arasında hüquq-mühafizə orqanlarında xidmətə marağın artırılması, Polis Akademiyasına qəbul qaydaları barədə ətraflı məlumat verilməsi, informasiya təhlükəsizliyi və hüquqşünaslıq ixtisasları üzrə peşəkar kadrların yetişdirilməsinə töhfə verməkdir.

Təbliğat-təşviqat işlərini uğurla davam etdirən Polis Akademiyasının əməkdaşları Bakı şəhərlərində, habelə respublikamızın müxtəlif şəhər və rayonlarında müəllimlərlə, IX-XI sinif şagirdləri ilə bir sıra görüşlər keçiriblər. Görüşlərdə Polis Akademiyasının



fəaliyyəti, tədris prosesi, kursantlar üçün yaradılan imkanlar və karyera perspektivləri haqqında geniş məlumat verilib, gənclərlə aparılan maarifləndirici söhbətlərdə hüquq-mühafizə sistemində xidmətin əhəmiyyəti və vətənpərvərlik prinsipləri xüsusi vurğulanıb.

Tədbirlər zamanı iştirakçılara Akademiyaya qəbul şərtləri, imtahan mərhələləri, təhsil müddəti və tədris proqramları ilə bağlı məlumatlar təqdim edilib.

Qeyd edək ki, kampaniya çərçivəsində paylanan çap materialları, videoçarxlar və sosial media vasitəsilə aparılan təbliğat işi də gənclərin maarifləndirilməsində mühüm rol oynayır.

*"Polis"*

# Kursantlar Zəfər parkında…

## Bura xalqımızın iradəsinin, ordumuzun qüdrətinin simvoludur

Vətən müharibəsində qələbənin 5-ci ildönümü ilə əlaqədar olaraq təşkil edilmiş silsilə tədbirlərin davamı olaraq Polis Akademiyasının kursantları Azərbaycanın şanlı qələbəsini əks etdirən Zəfər parkını ziyarət ediblər. Ziyarət zamanı kursantlar Vətən müharibəsində şəhid olmuş qəhrəmanların xatirəsini dərin ehtiramla anıb, parkda nümayiş olunan tarixi eksponatlarla tanış olublar.






# Problemə biganə qalmırıq

## Erkən nikah qanunazidd addım kimi hüquqi məsuliyyət yaradır

**Ötən ay Zərdabda 17 yaşındakı qızı 32 yaşlı oğlana vermək istəyiblər. Polis müdaxilə edib. Polis Sabirabad rayonunda 14 yaşlı qızla 20 yaşlı oğlanın izdivacına manea olub. Qubada da buna oxşar hadisə yaşanıb və qarşısı polis tərəfindən alınıb.**

Paytaxtın Qaradağ rayonunda 16 yaşlı qızın 25 yaşlı şəxslə evləndirilməsi üçün görülən toy hazırlığından xəbər tutan polis tərəflərlə profilaktik söhbətlər aparıb və bunun qanunazidd olduğunu deyib.

Təbii ki, hüquqi və inzibati resursların belə hallarda dərhal işə düşməsi ilə qanun pozuntusunun qarşısı alınır və geridəqalmışlığın yenidən önümüzə keçməsinə imkan verilmir. Ancaq bu məsələnin davamlı olaraq inzibati nəzarətdə saxlanılmasına ehtiyac varsa, deməli, həmin kəslər çox ciddi ictimai qınaq hədəfinə də çevirilməlidir.

Bəs, polis müdaxilə etməsəydi necə olacaqdı? Məsələ yenidən ictimailəşdikdən sonra övladını erkən nikah adlı bəlaya sürükləyib ona xeyir-dua verənlərin, daha doğrusu, valideyn adı daşıyanların cəzalandırılmasına nə cəmiyyət, nə də rəsmi qurumlar biganəlik nümayiş etdirmədi.

Artıq mental dəyərlər, "azərbaycanlıyıq bizə yaraşmaz" kimi söhbətlər arxa plana keçməli, qanun danışmalıdır. Çünki övladının erkən yaşda ana olmasına, onun həyatı təhlükəsinə göz yuman "valideyn" öncə vətəndaşdır və o, ölkə qanunvericiliyinə görə məsuliyyət daşıyır.

Problemlə mübarizənin qanunvericilikdə dəyişikliklərlə müşahidə olunmasını ictimai fikrin təsiri ilə də əlaqələndirmək olar. Əlbəttə ki, ictimai fikrin dəyişməsinə səbəb olan faktorlardan biri kimi polis də daxil olmaqla digər qurumların apardıqları maarifləndirmə tədbirləri diqqətçəkəndir. Ötən il daxili işlər orqanlarının yetkinlik yaşına çatmayanlarla iş



sahəsinə cavabdehlik daşıyan struktur qurumlarının əməkdaşlarının iştirakı ilə respublikanın şəhər və rayonları üzrə orta ümumtəhsil məktəblərində 2500-dən çox görüş və yığıncaq keçirilmişdir. Orta məktəblərin yuxarı sinif şagirdləri ilə keçirilən qabaqlayıcı-profilaktik tədbirlərin bir hissəsini erkən nikah mövzusu əhatə edir ki, həmin görüşlərdə polis əməkdaşları ilə yanaşı, dini qurumların, icra hakimiyyətinin və hüquq mühafizə orqanlarının nümayəndələri iştirak edir. Belə maarifləndirici tədbirlər isə çox böyük profilaktik nəticə ortaya qoyur. Məsələn, bu gün yetkinlik yaşına çatmayan qızların ərə verilməsi barədə ictimailəşən hadisələrin əksəriyyəti məhz maarifləndirmə işinin nəticəsi kimi özünü göstərir. Polis əməkdaşları yeniyetmələrə erkən nikahın tibbi və hüquqi fəsadlarını izah etməklə yanaşı, iradələri əleyhinə təhsildən yayındırılıb gəlin köçməyə məcbur edildikləri hallarda necə davranmalı olduqlarını da başa salırlar.

### Məsuliyyət birbaşa valideynin üzərinə düşür

Əslində, erkən yaşda ailə qurmağa məcbur edilən azyaşlıların sonrakı aqibətinə görə məsuliyyət valideynlərin üzərinə düşür. Məsələ ilə bağlı DİN Baş İctimai Təhlükəsizlik İdarəsindən bildirdilər ki, İnzibati Xətalar Məcəlləsinə yeni əlavə olunmuş dəyişikliklərə uyğun olaraq erkən nikahlarla bağlı İnzibati Xətalar Məcəlləsinin 189. 2-ci maddəsinə uyğun olaraq Xətai rayonunda 1, Zərdabda 2, Cəlilabadda 1, Şəmkirdə 1, Şamaxıda 3, Masallıda 1, ümumilikdə, doqquz obyekt sahibi məsuliyyətə cəlb edilib. Hazırda bu istiqamətdə profilaktik tədbirlər davam etdirilməkdədir.

### Narahatedici məqam

Mütəxəssislərin fikrincə, erkən nikah ilk növbədə qızların təhsil hüququnun pozulmasına səbəb olur. Təhsilini davam etdirə bilməyən gənc qızlar həm peşəkar inkişafdan, həm də sağlam sosial mühitdən uzaq qalırlar. Bu isə son nəticədə həm ailədaxili, həm də ictimai münasibətlərdə müxtəlif çətinliklərin yaranmasına gətirib çıxarır. Psixoloqlar bildirirlər ki, erkən nikah gənclərin psixoloji sağlamlığına da ciddi təsir göstərir. Yetkinlik yaşına çatmadan ailə məsuliyyəti daşımaq, uşaqlara qayğı göstərmək və ailə büdcəsini idarə etmək böyük psixoloji gərginlik yaradır. Bu cür hallar çox zaman ailədaxili zorakılıq və sosial problemlərlə nəticələnir. Gələnən qənaət budur ki, sözügedən məsələ ilə bağlı daha sərt qanunlar qəbul edilməlidir. Onu görməzlikdən gələnlər həm ictimai qınaqla üzbəüz qalmalı, həm də yaxaların qanuna tanıtmalıdırlar.

*T.Hafiz*

# Onların gözündə yol hərəkəti qaydaları…

## Rəsm müsabiqəsinin nəticələri açıqlanıb

Baş Dövlət Yol Polisi İdarəsinin elan etdiyi "Yol hərəkəti qaydaları uşaqların gözü ilə" adlı rəsm müsabiqəsinə yekun vurulub.

Elm və Təhsil Nazirliyi ilə səmərəli əməkdaşlığın növbəti göstəricisi olan müsabiqənin mükafatlandırma mərasimi Bakı şəhər 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin rəsm qalereyasında təşkil edilib.

QHT və media nümayəndələrinin də iştirak etdiyi tədbirdə I yerin qalibi Bakı şəhər 2 nömrəli UGİM-in təmsilçisi Şükufə Zülfüqarova, II yerin qalibi Bakı şəhər 1 nömrəli UGİM-in təmsilçisi Safiya Əliyeva, III yerin qalibi isə Şəki şəhər 12 nömrəli tam orta məktəbin şagirdi Leyla Cabbarlı elan olunub.

Qaliblərə və fəal iştirakçılara müvafiq diplom, təşəkkürnamə



və hədiyyələr təqdim edilib.

Məlumata görə, ümumilikdə müsabiqəyə respublikanın 41 təhsil müəssisəsindən 200-dən çox əsər təqdim olunub.

# Uşaqlarla bağlı həssas mövzu

## "Azərbaycan Uşaq Qaynar Xətti"nə müraciət sayı açıqlandı

"Azercell"-in dəstəyi ilə fəaliyyət göstərən "Azərbaycan Uşaq Qaynar Xətt" xidməti (AUQX) 2025-ci ilin iyul-sentyabr ayları ərzində 1594 müraciət qəbul edib.

Müraciətlərin 512-si psixoloji dəstəyə ehtiyacla bağlı olub və bu istiqamət ilin ilk altı ayında olduğu kimi üstünlük təşkil edib. Bununla yanaşı, 261 sosial məsələ, 232 zorakılıq halı, 227 hüquqi yardım, 98 təhsil, 14 səhiyyə və 250 müxtəlif məzmunlu sorğu qeydə alınıb.

Statistikaya əsasən, müraciət edənlərin 59%-ni qadınlar, 29%-ni kişilər təşkil edib. Müraciətlərin 12%-i isə xidmətə anonim qaydada ünvanlanıb. Yaş bölgüsünə görə, ən çox müraciət 15–18 yaş aralığındakı yeniyetmələr tərəfindən edilib - 1147. Digər sorğuların 335-i 11–14 yaş, 112-si isə 10 yaşadək uşaqlarla bağlı olub.

Müraciətlərin 50%-i rəqəmsal kanallar (sosial media, e-poçt, veb-sayt) üzərindən, digər 50%-i isə telefon zəngləri vasitəsilə edilib.

Çətin vəziyyətə düşmüş uşaqlara yardım məqsədilə 34 ailə mərkəzə dəvət edilərək hüquqi, psixoloji və psixososial dəstək alıb. Ümumilikdə, 90-dan çox sosial-psixoloji reabilitasiya işi həyata keçirilib, 3 məktəb və ailəyə təcili-təxirəsalınmaz səfər təşkil edilib. Bununla yanaşı, AUQX komandası xidmətin fəaliyyəti barədə məlumatlılığın artırılması məqsədilə maarifləndirmə tədbirləri də keçirib.

# Gənclərə doğru yol göstərilir

## "Narkomaniyaya yox deyək!" tədbirləri davam etdirilir

Nəsimi Rayon Polis İdarəsinin təşkilatçılığı ilə 46 nömrəli tam orta məktəbdə "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə polis əməkdaşları, məktəbin pedaqoji heyəti və yuxarı sinif şagirdləri iştirak ediblər. Tədbirdə çıxış edən RPİ-nin rəisi polis polkovniki Vüqar Ağayev narkotik vasitələrin insan sağlamlığına və cəmiyyətin mənəvi dəyərlərinə vurduğu zərərdən danışıb. Bildirib ki, narkomaniyaya qarşı mübarizə yalnız hüquq-mühafizə orqanlarının deyil, hər bir vətəndaşın, xüsu-



silə gənclərin üzərinə düşən məsuliyyətdir. Rəis gənclərə bu bəla ilə mübarizədə daim ayıq-sayıq olmağı, zərərli vərdişlərdən uzaq durmağı və sağlam həyat tərzini seçməyi tövsiyə edib.

Tədbirdə çıxış edən müəllimlər və şagirdlər belə görüşlərin maarifləndirmə baxımından böyük əhəmiyyət daşıdığını vurğulayaraq, polis əməkdaşlarına təşəkkürlərini bildiriblər.

Sonda narkotiklərin insan həyatına dağıdıcı təsirindən bəhs edən videoçarx nümayiş etdirilib.

Nərimanov Rayon Polis İdarəsinin təşəbbüsü ilə də Dilqəm Nəbiyev adına 178 nömrəli tam orta məktəbdə anoloji görüş keçirilib. Tədbirdə məktəbin müəllim və şagird kollektivi ilə yanaşı, polis əməkdaşları da iştirak ediblər. Çıxış edənlər qeyd ediblər ki, narkomaniya cəmiyyətin gələcəyinə ciddi təhdid yaradan sosial bəladır. Onun qarşısının alınmasında ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti mühüm rol oynayır. Gənclərin düzgün istiqamətləndirilməsi, asudə vaxtlarının səmərəli təşkili və sağlam düşüncənin təbliği narkotik vasitələrin yayılmasının qarşısını almağın əsas yollarındandır.

Tədbir zamanı şagirdlərə maarifləndirici bukletlər təqdim olunub, eləcə də narkotiklərin zərərli təsirinə dair qısa film nümayiş etdirilib. Sonda məktəb rəhbərliyi bu kimi tədbirlərin davamlı keçirilməsinin zəruriliyini qeyd edərək, polis əməkdaşlarına təşəkkür edib.

# Qəhrəmanlıq da yaşayır, qəhrəmanlar da...

## Vətən müharibəsinin xronologiyasından

*(Əvvəli ötən sayımızda)*

Qələbəmizdən, torpaqlarımızın işğaldan azad olunmasından, daha doğrusu 2020-ci ilin sentyabrından beş il ötsə də yaddaşımızda, ruhumuzda özünə əbədi yer eləyən o hiss hələ də bizi tərk etməyib. O hissə qisas adı da verə bilərik, yurda dönüş istəyi də, bir qərinəyə yaxın illərin qələbə ilə sonlanmış məntiqi sonluğu da demək olar.












Bu gün işğaldan azad olunmuş yurdlara əbədi bir köç başlayıb. Bu köç təhlükəsiz, top-tüfəng səsi gəlməyən , Azərbaycan əsgərinin, Azərbaycan Polisinin gecə-gündüz keşik çəkdiyi torpaqlarda gələcək xoş günlərin, uğurların təməlini qoymaq üçün 30 ildən sonra yola çıxıb. Bu köçlərin, bu qayıdışın bir qaranti var: Azərbaycan dövləti, Azərbaycan xalqı və Dəmir yumruq.

Vətən müharibəsində Qələbəmizə aparan hər günün, hər ayın öz yeri var. Oktyabr ayı da müharibədə mühüm hərbi nailiyyətlərlə yadda qalıb.

**Oktyabrın 10-da** səhər saatlarınadək Azərbaycan Silahlı Qüvvələrinin davam etdirdiyi hücum əməliyyatı nəticəsində bu müddətdə düşmənin xeyli sayda şəxsi heyəti, 13 ədəd tankı, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-20 və D-30 topu, 3 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 2 ədəd M55 "Zastava" zenit qurğusu, 2 radiolokasiya stansiyaları və radioelektron mübarizə vasitələri dəqiq atəşlə məhv edilmiş və sıradan çıxarılmışdır. Həmin gün Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə məxsus S-300 zenit raket sistemini məhv etmişdir. Ermənistan ordusunun bütün havadan müdafiə sistemini yönəldən, Xocalıda yerləşən ən bahalı 19J6 (ST-68U) radiolokasiya stansiyası məhv edilmişdir.

**Oktyabrın 11-də** saat 02:00 radələrində Gəncə şəhərinin mərkəzində bir yaşayış binası raket atəşinə məruz qalmışdır. Nəticədə Azərbaycan Respublikası Baş Prokurorluğunun verdiyi məlumata görə, düşmənin Gəncənin mərkəzi hissəsində yerləşən çox mənzilli yaşayış binasını raket atəşinə tutması nəticəsində 5 nəfər həlak olmuş, 28 nəfər yaralanmış, çoxsaylı mülki infrastruktur obyektlərə külli miqdarda ziyan dəymişdir. Gecə ərzində Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 5 ədəd T-72 tankı, 6 ədəd D-20 və D-30 haubitsası, 5 ədəd sursatla dolu yük maşını, 11 ədəd digər avtomobil texnikası, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 5 ədəd 2S1 "Qvozdika" özüyeriyən haubitsası, 8 ədəd hava hücumundan müdafiə sistemi və radiolokasiya stansiyası məhv edilmiş və sıradan çıxarılmışdır. Məlumata əsasən canlı qüvvə sarıdan xeyli itki verən düşmən ordusunda ölənlər arasında 1-ci motoatıcı alayın komandirinin müavini polkovnik-leytenant Artak Vanyan da var.

**Oktyabrın 12-də** səhər saatlarında Ağdam rayonu ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmuşdur. Gecə boyu həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd T-72 tankı, bir neçə avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Qırmızı Bazar məntəqəsi istiqamətinə endirilən artilleriya zərbəsi nəticəsində 1-ci alayın daimi dislokasiya məntəqəsində yeraltı sığınacaq və düşmənin geri çəkilən bölməsinin 2 texnikası məhv edilmişdir. Məlumata əsasən canlı qüvvə sarıdan xeyli itki verən Ermənistan ordusunda ölənlər arasında 246-cı alayın tabor komandiri polkovnik-leytenant Artur Qriqoryan da var.

**Oktyabrın 13-də** Azərbaycan Silahlı Qüvvələri tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd "Tor-M2KM" ZRK, YARS, 1 ədəd ZSU-23–4 "Şilka" özüyeriyən zenit qurğusu, 2 ədəd PDM-2, 3 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd KS-19 zenit topu, 1 ədəd D-20 haubitsa topu, 3 ədəd PUA, bir neçə avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır.

Döyüş əməliyyatları zamanı Ermənistan Silahlı Qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində mövqe tutan şəxsi heyəti məhv edilmiş, 1-ci motoatıcı alayın bir bölüyə qədər canlı qüvvəsi pusquya salınmış, hərəkətdə olan avtomobil texnikası sıradan çıxarılmışdır. Əsgəran istiqamətində hərəkət edən 4-cü motoatıcı alayın avtomobil texnikası kolonu və Ermənistanın Sisian yaşayış məntəqəsi istiqamətindən işğal olunmuş ərazilərə doğru hərəkət edən könüllülərdən ibarət bir qrup atəş zərbəsi ilə məhv edilmişdir. Döyüş əməliyyatları zamanı tanınmış erməni terrorçu, "Körpə" ləqəbli Mqer Arutyunyan da zərərsizləşdirilmişdir.

**Oktaybrın 14-də** saat 03:23-də Azərbaycan Müdafiə Nazirliyi Azərbaycan Silahlı Qüvvələrinin Kəlbəcər rayonu ilə sərhəd zonasında yerləşdirilmiş Ermənistanın bir neçə ballistik raket kompleksini məhv etdiyini bildirdi. Müdafiə Nazirliyinin məlumatına görə, raket sistemləri Gəncə, Mingəçevir və Azərbaycanın digər şəhərlərindəki mülki əhaliyə və infrastruktura yönəlmişdi. Həmin gün Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Füzuli rayonunun Qaradağlı, Xatınbulaq, Qarakollu və Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Qırmızıqaya, Dağdöşü, Tağaser kəndlərinin Azərbaycan qoşunları tərəfindən azad olunduğunu elan etdi.

*(Ardı gələn sayımızda)*

# Futbolda da fərqləndilər

## Respublika çempionatında birinci oldular

Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində polis əməkdaşları arasında "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş mini futbol üzrə respublika çempionatı keçirilib.

Diplomatik Nümayəndəliklərin Mühafizəsi üzrə Əlahiddə Polis Taborunun komandası Bakı şəhər Baş Polis İdarəsinin komandasının qapısından 6 top keçirib. Rəqib komanda




yalnız iki cavab topu vura bilib. Əlahiddə Çevik Polis Alayının komandası isə Abşeron RPİ-nin komandasını 5-2 hesabı ilə məğlub edib.

Tədbirdə Mərkəzi Aparat da daxil olmaqla, respublikanın şəhər və rayonlarının polis orqanlarının komandaları iştirak ediblər.

Əvvəlcə ulu öndər Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda edən igid oğullarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Sonra yarışa start verilib.

Doqquz komandanın gücünü sınadığı yarış çox gərgin keçib. Finalda BİTİ-nin yalnız iki cavab topu vura bilib.

Beləliklə, yarışın çempionu BİTİ-nin Diplomatik Nümayəndəliklərin Mühafizəsi üzrə Əlahiddə Polis Taborunun komandası olub. İkinci yeri Bakı şəhər Baş Polis İdarəsinin, üçüncü yeri ƏÇPA-nın komandası tutub. Qalib gələn komandaların üzvləri medal, diplom və xatirə hədiyyələri ilə təltif ediliblər.

# Məhkəmə nitqi necə olmalıdır?

## Mütəxəssislər bu nitq növünə maraqlı yanaşma sərgiləyiblər

Nitq qüdrətli silah olub, cəmiyyət, dövlət və dövlətin quruluşunda, məhkəmə və ictimai-siyasi sistemdə mühüm rol oynayır. Yunan və Roma natiqlik məktəblərinin görkəmli nümayəndələri nitqə yüksək qiymət vermiş, nitqin aydın, təmiz və uyğunluq kimi keyfiyyətlərini təsvir etmiş, qiymətləndirmişlər. Görkəmli natiqlərdən olan Diogen nitqin beş məziyyətini – nitqin təmizliyi, aydınlığı, yığcamlığı, məqamadüşmə və gözəlliyini əsas götürürdü. O hesab edirdi ki, səhvlərə yol verilməyən, cilalanmış nitq təmizdir. Fikir asan qavranılırsa, deməli, aydın nitqdir. Aydınlıq da bir ifadə üsuludur. Nitqin aydın ifadə olunmasında fikrin ifadəsi üçün ən zəruri olan sözlər işlədilməlidir. Məqamadüşmə ifadə tərzinin mövzuya uyğunluğudur. Nitq o zaman gözəl olur ki, adilikdən uzaq olur. Dionisi isə bu barədə yazırdı: "Nitqin birinci keyfiyyəti lüğət tərkibinin təmizliyidir, ikincisi nitqin səciyyəviliyidir. Üçüncü yeri yığcamlıq tutur. Məqamdüşməni nitqin daha zəruri məziyyətlərindən biri hesab edir. Yığcamlıqla aydınlıq birləşəndə daha xoş təsir bağışlasa da, məqsədəuyğunluq bütün keyfiyyətlərin əsasıdır".

Danışanın geniş və zəngin söz ehtiyatına malik olması nitqin zənginliyi üçün əsas meyardır. Nitqin zənginliyi dil və nitq əlaqəsi əsasında meydana gəlir. Nitqdə təkrarçılığa nə qədər az yer verilərsə, işarələr həlqəsi nə qədər az təkrarlanarsa, dil strukturu nə qədər zəngin olarsa, nitq də bir o qədər zəngin olar, maraqla dinlənilər, asanlıqla dərk edilər. Əks hallar nitqi yorucu, darıxdırıcı və sıxıcı olur, nitqin yoxsulluğunu və zəifliyini göstərir. Eyni danışıq tərzi, monoton intonasiya dinləyiciləri yorur, nitqi korlayır.

Fərdi-psixoloji hadisə olan nitq, ifadə üsullarına, təzahür şəkillərinə, kommunikativ məqsədinə və s əlamətlərinə görə seçilir. Nitqin şifahi, yazılı, rəsmi, səhnə, danışıq, kütləvi-ədəbi, vasitəli, vasitəsiz, təşkil olunma, ümumi və fərdi, aktiv və passiv, monoloji və ideoloji, zahiri və daxili və s. növləri vardır. Nitqin belə növlərindən biri də məhkəmə nitqidir.

*Aynur Səfərli*

*(Ardı gələn sayımızda)*

# İnanılmazdır, ancaq həqiqətdir

## Orta əsrlərdə heyvanlar da məhkəməyə verilirdi

Müasir məhkəmə sistemi bugünkü səviyyəsinə çatmaq üçün uzun və tarixi bir yol keçmişdir. Dövrümüzdə insanların biri-birini məhkəmə ilə hədələməsi demək olar ki, adi bir hal almışdır.

Bunula yanaşı, tarix bir çox maraqlı məhkəmə çəkişmələrinə şahidlik etmişdir. Hətta orta əsrlərdə Avropa ölkələrində insanları deyil, heyvanları, məsələn, donuz, inək, qurbağa və siçanı da məhkəməyə verirdilər. Qəribə səslənsə də, bu, bir folklor deyil, sənədlərlə təsdiqlənmiş tarixi faktlardır.

Fransada 1386-cı ildə donuz 5 yaşlı uşağı dişləyib öldürdüyü üçün rəsmi şəkildə mühakimə olunmuşdu. Məhkəmədə şahidlər dinlənilmiş, dəlillər təqdim edilmiş və sonda donuz meydanda, insanların gözü qarşısında edam edilmişdi.

Qəribədir ki, bəzən bu heyvanlara hüquq müdafiəçiləri də təyin olunurdu və onlar heyvanın adından müdafiə çıxışı edirdilər.

Sadəcə ev heyvanları deyil, kənd təsərrüfatına ziyan vuran gəmiricilər də mühakimə olunurdu. Məsələn, siçanlar bir neçə dəfə məhsulu məhv etdiklərinə görə kollektiv şəkildə məhkəməyə verilib.

Bu məhkəmələrdə heyvanlara hüquq müdafiəçisi təyin olunması xüsusi diqqət çəkir. Hətta bəzi hallarda müdafiə tərəfi heyvanın günahsız olduğunu əsaslandırmağa çalışırdı.

Məsələn, deyirdilər ki, "donuz balası təlimsizdir və özünü instinktlərlə aparır, ona görə də cinayət niyyətli olmayıb".

Bu, o dövr üçün az da olsa, hüquqi düşüncənin inkişafının göstəricisi sayıla bilər.

Bugünkü baxışla bu hadisələr həm gülünc, həm də bir az düşündürücüdür. Bəlkə də o dövrdə insanlar hər şeyin ilahi və hüquqi izahı olduğuna inanırdılar. Əgər bir heyvan zərər verirdisə, bu, cəmiyyətin bütövlüyünə təhdid kimi qəbul edilirdi.

Beləliklə, heyvanları mühakimə etməklə həm ədaləti təmin etdiklərini düşünür, həm də cəmiyyətin sakitliyini qorumağa çalışırdılar.

Bu gün biz heyvanları hüquqi məsuliyyətə cəlb etmirik. Amma orta əsrlərdə qanun və inanclar çərçivəsində heyvanların da "cinayətkar" ola biləcəyi qəbul edilirdi. Bu hadisələr bir tərəfdən bizə tarixin qəribə üzünü göstərir, digər tərəfdən də hüququn, ədalət anlayışının əsrlər boyu necə inkişaf etdiyini izah edir. Tarix hər zaman təəccübləndirə bilər və bu məhkəmələr bunun bariz nümunəsidir.

*Aytən Tahirova*
*polis kapitanı*

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik